*Əlavə _*
*Azərbaycan Respublikası Dövlət Neft*
*Şirkətinin __.__.____-ci il tarixli,*
*__ nömrəli əmri ilə*
*təsdiq edilmişdir*

SOCAR

**Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin standartlaşma sistemi.**
**Peşə sınaq imtahanlarının təşkili və keçirilməsi**
(SOCARSS – 004.2021)

---

**01.1. Standartlaşmanın məqsədi –** nəzəri və təcrübi bilik və bacarıq tələb olunan vakansiyalar üzrə peşə sınaq imtahanlarının təşkili, keçirilməsi və qiymətləndirilməsi ilə əlaqədar münasibətlərin tənzimlənməsidir.

**01.2. Məsul qurum** – SOCAR-ın prezidentinin əmri ilə müəyyən edilir.

**01.3. Peşə sınaq imtahanı -** müvafiq vakansiyalar üzrə iddiaçının nəzəri, təcrübi bilikləri və bacarıqlarının qiymətləndirilməsi imtahanıdır.

**01.4. Vakansiyaların siyahısının müəyyən edilməsi** – SOCAR üzrə peşə sınaq imtahanlarının keçirilməsi tələb olunan vakansiyaların siyahısı müvafiq struktur bölmə tərəfindən müəyyən olunur.

**01.5. İddiaçı** – ilkin seçim və test imtahanı mərhələsini müvəffəqiyyətlə keçən, müvafiq vakansiya üzrə peşə sınaq imtahanına buraxılan namizəddir.

**01.6. İmtahana cəlb ediləcək mütəxəssislərin müəyyən edilməsi -** müəssisənin müvafiq struktur bölməsi imtahana cəlb ediləcək mütəxəssisləri müəyyən edir. Zəruri hallarda müvafiq struktur bölmə tərəfindən imtahana digər mütəxəssislər də cəlb edilə bilər.

**01.7. Peşə sınaq imtahanlarının keçirildiyi yer –** Peşə sınaq imtahanları vakansiyanın aid olduğu müəssisənin müvafiq texniki vasitələrə malik struktur bölməsində keçirilməlidir. Tələb olunan texniki vasitələr (avadanlıq, qurğu və s.) və ya müvafiq şərait olmadıqda peşə sınaq imtahanı SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin təlim mərkəzlərində və ya digər müəssisədə keçirilir. Peşə sınaq imtahanlarının keçirilmə yerləri qurumun maddi-texniki imkanları nəzərə alınmaqla müəssisənin müvafiq struktur bölməsi tərəfindən müəyyən edilir.

**01.8. Peşə sınaq imtahanının keçirilməsi barədə bildirişin göndərilməsi –** vakansiya üzrə peşə sınaq imtahanının keçirilməsi haqqında elektron məktub

müəssisənin müvafiq struktur bölməsi tərəfindən imtahanda iştirak edəcək iddiaçıların siyahısı müəyyən edildikdən sonra imtahanın keçirildiyi qurum rəhbərliyinə göndərilir. Elektron məktubda vakansiya haqqında məlumatlar göstərilir.

**01.9. İddiaçının peşə sınaq imtahanına dəvət edilməsi** qaydası aşağıdakı kimidir:

1. Müəssisənin müvafiq struktur bölməsi vakansiyanın tələblərinə cavab verən bütün iddiaçıların imtahan qrafikini tərtib edir.
2. Peşə sınaq imtahanının tarixi, vaxtı, yeri və tələb olunan sənədlər iddiaçıya imtahanın keçirilməsinə ən azı 3 gün qalmış elektron poçt vasitəsilə bildirilir.
3. Üzrlü səbəbdən peşə sınaq imtahanında iştirak edə bilməyən iddiaçı müvafiq təsdiqedici sənədi təqdim etdiyi halda, başqa tarixdə imtahan edilə bilər.
4. Müəssisənin müvafiq struktur bölməsinin peşə sınaq imtahanına dəvət barədə SOCAR işçisi olan iddiaçıya göndərdiyi elektron məktub iddiaçının orta aylıq əməkhaqqısı saxlanılmaqla işdən buraxılması üçün əsas sayılır.
5. İmtahan tarixi iş gününə və vaxtına təsadüf etdikdə SOCAR işçisi bu barədə işlədiyi struktur bölmənin rəhbərinə yazılı məlumat verməlidir.

**01.10. İddiaçı tərəfindən peşə sınaq imtahanına gətirilən sənədlər** – iddiaçı peşə sınaq imtahanına dəvət məktubunda qeyd olunmuş sənədlərin əslini və ya notarial qaydada təsdiq olunmuş surətini gətirməli və İmtahan Komissiyasına təqdim etməlidir.

**01.11. İmtahan komissiyası (Komissiya) -** hər bir peşə sınaq imtahanı 2 nəfərdən az və 5 nəfərdən çox olmayan imtahan komissiyası tərəfindən keçirilir. Komissiyanın tərkibinə müəssisənin müvafiq struktur bölməsinin İR nümayəndəsi və aidiyyəti sahə üzrə mütəxəssis(lər) daxil edilir. Baş ofisin İnsan Resursları Departamentinin aidiyyəti mütəxəssis(lər)i və onların dəvət etdikləri neytral mütəxəssislər peşə sınaq imtahanında Komissiya üzvü və ya müşahidəçi qismində iştirak edə bilər.

**01.12. Komissiya üzvünə dair tələblər** – Komissiya üzvləri imtahan olunan peşə və ya ixtisas üzrə ən azı 3 illik iş təcrübəsinə, qiymətləndirmə bacarığına malik mütəxəssis olmalıdır.

**01.13. Komissiya üzvünün peşə sınaq imtahanına dəvət edilməsi**

1. Müəssisənin müvafiq struktur bölməsi peşə sınaq imtahanının keçirilməsinə ən azı 3 gün qalmış imtahan qrafikini (keçirilmə tarixi, vaxtı və yeri) elektron poçt vasitəsilə Komissiya üzvünə göndərir.
2. Imtahan tarixi iş gününə və vaxtına təsadüf etdikdə Komissiya üzvü bu barədə işlədiyi struktur bölmənin rəhbərinə məlumat verməlidir.

Dəvət olunmuş mütəxəssisin üzürsüz səbəbdən peşə sınaq imtahanında iştirak etməməsi onun intizam məsuliyyətinə cəlb edilməsi üçün əsasdır.

**01.14. Komissiya üzvlərinin vəzifələri** – Komissiya üzvləri peşə sınaq imtahanı ilə bağlı aşağıdakı tələblərə əməl etməlidirlər.

1. İddiaçının şəxsiyyətinə, fikirlərinə hörmətlə yanaşmalı, onu təhqir etməməli və ya ələ salmamalı, onunla mübahisə etməməli, diqqətli və səbirli olmalıdır;
2. İddiaçıya vakansiyaya uyğun keyfiyyətləri qiymətləndirmək məqsədi ilə suallar və praktiki tapşırıqlar verməli və diqqətlə suallara verilmiş cavabları dinləməli və praktiki tapşırıqların yerinə yetirilməsini müşahidə etməlidir;
3. İddiaçıları eyni suallar və praktiki tapşırıqlar əsasında qiymətləndirməlidir;
4. İddiaçıya öz fikirlərini formalaşdırıb sərbəst ifadə etməyə maneçilik törətməməli, onun mövzudan kənara çıxdığı hallar istisna olmaqla, sözünü kəsməməlidir, praktiki tapşırığın yerinə yetirilməsi üçün sərbəstlik yaratmalıdır;
5. İddiaçıya müvafiq peşəyə/vəzifəyə yararlı olub-olmaması barədə fikir bildirməməlidir;
6. İddiaçıya verilən sualların, praktiki tapşırıqların və həmin suallara iddiaçı tərəfindən verilən cavabların, eləcə də praktiki tapşırıqların icrasının yazılı qeydiyyatını aparılmalıdır;
7. İddiaçıya mümkün cavabları təlqin etməməli, eləcə də yönəldici sualların, yəni müəyyən cavabın gözlənilməsinə işarə edən sualların verilməsinə, yol verməməlidir;
8. Peşə sınaq imtahanı zamanı və ya müvafiq qərar qəbul edərkən qərəzsiz olmalı və bu zaman irqinə, milliyyətinə, dilinə, dininə, cinsinə, sosial mənşəyinə, əmlak və qulluq vəziyyətinə, əqidəsinə, siyasi partiyaya, ictimai və ya hər hansı digər birliyə mənsubiyyətinə görə hər hansı iddiaçının üstünlüyünə və ya belə üstünlüyün əldə edilməsi üçün şəraitin yaradılmasına, habelə iddiaçının vəziyyətinin ağırlaşdırılmasına və ya belə vəziyyətin yaranması üçün şərait yaradılmasına yol verməməlidir;
9. Sual-cavab qeydiyyat vərəqələri peşə sınaq imtahanının sonunda Komissiya üzvləri tərəfindən imzalanmalı və müəssisənin müvafiq struktur bölməsinin nümayəndəsinə təqdim edilməlidir.
10. Peşə sınaq imtahanında verilən sualların və cavabların konfidensiallığını qorumalıdır.

**01.15. Peşə sınaq imtahanının keçirilməsi prinsipləri** – peşə sınaq imtahanı obyektivlik, bərabərlik, şəffaflıq və aşkarlıq prinsipləri əsasında təşkil edilir.

- Obyektivlik – peşə sınaq imtahanı nəticələrinin və iddiaçıların müvafiq peşəyə/vəzifəyə yararlılığının yalnız iddiaçılarla aparılmış imtahan əsasında və bu standart ilə müəyyən edilmiş meyarlar rəhbər tutulmaqla qiymətləndirilməsini nəzərdə tutur;
- Bərabərlik – bütün iddiaçıların irqindən, milliyyətindən, dilindən, dinindən, cinsindən, sosial mənşəyindən, əmlak və qulluq vəziyyətindən, əqidəsindən, siyasi partiyaya, ictimai və ya digər birliyə mənsubiyyətindən asılı olmayaraq, peşə sınaq imtahanının keçirilməsi ilə əlaqədar eyni hüquqlara malik olması və eyni peşələr/vəzifələr daşımasını, həmçinin bütün namizədlərlə imtahanın eyni

qaydada keçirilməsini və iddiaçının müvafiq peşəyə/vəzifəyə uyğunluğunun eyni meyarlar əsasında qiymətləndirilməsini nəzərdə tutur;

- Şəffaflıq və aşkarlıq – peşə sınaq imtahanının açıq şəraitdə keçirilməsini və imtahanın nəticələrinin açıq elan olunmasını nəzərdə tutur.

**01.16. Peşə sınaq imtahanının məzmunu –** peşə sınaq imtahanı zamanı iddiaçıya verilən suallar və praktiki tapşırıqlar onun güclü və zəif tərəflərinin, eləcə də praktiki bacarıqlarının müəyyən edilməsinə, potensialının daha dolğun açılmasına yönəlməli və əldə edilmiş məlumat və nəticələr iddiaçının biliklərinin, işgüzar vərdişlərinin, praktiki qabiliyyətinin, işə münasibətinin və fərdi davranış keyfiyyətlərinin vakant peşənin/vəzifənin tələblərinə uyğun gəlib-gəlmədiyinin müəyyən etməsinə xidmət etməlidir.

**01.17. Peşə sınaq imtahanının strukturu -** peşə sınaq imtahanın strukturu iki hissədən ibarətdir:

1. nəzəri biliklərin və praktiki tapşırığın yerinə yetirilməsinin yoxlanılması;
2. fərdi müsahibənin keçirilməsi.

**01.18. Qiymətləndirmə meyarları -** iddiaçının peşə sınaq imtahanlarında vakant vəzifə/peşə üzrə qiymətləndirmə meyarlarına aiddir:

1.nəzəri bilik və təcrübi bacarığı (ixtisas səriştəlilikləri);
2.şəxsi və işgüzar davranış keyfiyyətləri (davranış səriştəlilikləri).

**01.19. Qiymətləndirmə qaydası –** müəssisənin müvafiq struktur bölməsindən olan Komissiya üzvü iddiaçının şəxsi və işgüzar davranış keyfiyyətlərini, aidiyyəti sahə üzrə Komissiya üzvləri isə iddiaçının nəzəri bilik və təcrübi bacarığını qiymətləndirirlər. İddiaçının nəzəri bilik və təcrübi bacarıqları qənaətbəxş olmadığı hallarda onun şəxsi və işgüzar keyfiyyətləri qiymətləndirilməyə bilər.

**01.20. Peşə sınaq imtahanının müvəffəqiyyət göstəricisi -** Qiymətləndirmə meyarlarının hər biri üzrə minimum keçid balını toplamış və yekun bal olaraq ən yüksək nəticə göstərən iddiaçı peşə sınaq imtahanından uğurla keçmiş hesab edilir. Minimum keçid balı və yekun balın hesablanması müvafiq normativ sənədlərin tələblərinə uyğun olaraq, aparılır. Yüksək bal toplamış bir neçə iddiaçının imtahan nəticələri bərabər olduqda, onların arasından aşağıdakı ardıcıllıqla göstərilmiş hallar üzrə qalib seçilir:

1. peşə bacarığı üzrə daha yüksək nəticə əldə etmiş iddiaçı;
2. test imtahanında daha yüksək nəticə əldə etmiş iddiaçı;
3. sahə üzrə daha çox iş təcrübəsi olan iddiaçı.

**01.21. Kadr ehtiyatı bazası –** Ən yüksək nəticə göstərən iddiaçı(lar) istisna olmaqla minimum keçid balını toplayan namizədlər reytinq siyahısına əsasən və mövcud kadr tələbatı nəzərə alınmaqla müəssisənin Kadr ehtiyatı bazasına (KEB) daxil edilir və daxil edildiyi tarixdən etibarən 12 ay müddətində KEB-də saxlanılır. Həmin müddətdə KEB-ə daxil edilən iddiaçı(lar) müəssisədə daxil edildiyi peşə(lər)ə

uyğun ixtisaslar üzrə vakansiya(lar) olduqda kadr tələbatına əsasən işə qəbul oluna bilər(lər).

**01.22. Peşə sınaq imtahan prosesinin nəticələrinin rəsmiləşdirilməsi** – peşə sınaq imtahan prosesinin nəticəsi protokollaşdırılır və Komissiya üzvləri tərəfindən imzalanır.

**01.23. Peşə sınaq imtahanının nəticələri –** imtahan nəticələrinə uyğun olaraq müəssisənin müvafiq struktur bölməsi tərəfindən iddiaçıların reytinq siyahısı tərtib olunur. Ən yüksək nəticə göstərmiş iddiaçı(lar)a müəssisənin müvafiq struktur bölməsi tərəfindən rəsmi iş təklifi göndərilir. Hər hansı səbəbdən həmin iddiaçı(lar) iş təklifindən imtina edər(lər)sə və ya işə qəbul edilməz(lər)sə, rəsmi iş təklifi reytinq siyahısı üzrə KEB-ə daxil edilmiş növbəti iddiaçıya(lara) göndərilir.

**01.24. İmtahan nəticələri barədə iddiaçının məlumatlandırılması** – peşə sınaq imtahanında iştirak edən iddiaçılara imtahanın nəticəsi barədə müvafiq bildirişlər (elektron poçt və ya sms) göndərilir.